## Nə dəyişdi?

Vergi uçotu ilə mühasibat uçotu arasında fərqliliklərin aradan qaldırılması məqsədilə, mikro sahibkarlıq subyektləri istisna olmaqla digər sahibkarlıq subyektləri tərəfindən gəlirlərinin və xərclərinin uçotu hesablama metodu ilə aparılacaqdır.

Sahibkarlıq subyektlərinin hüquqlarını genişləndirməklə vergi ödəyicisinin balansında olmayan əsas vəsaitlər üzrə çəkilən təmir xərclərinin onlar tərəfindən amortizasiya ayırmaları şəklində gəlirdən çıxılması qanunvericilikdə təsbit edilir və bununla da sahibkarın real xərci gəlirdən çıxılan xərc kimi tanınmaqla onun maliyyə yükünə müsbət təsir etmiş olur.

Sənədləşdirilməyən ezamiyyə xərclərinin işçiyə ödənilən məbləğinin artırılması ilə əlaqədar sui-istifadə hallarının aradan qaldırılması məqsədlə ezamiyyə xərcləri üzrə mehmanxana ilə bağlı xərclər sənədləşdirilmədikdə mehmanxana üçün müəyyən olunmuş ezamiyyə normasının 50 faizi gəlirdən çıxılır.

**Mənfəət vergisi ilə bağlı ətraflı məlumatla "Mənfəət vergisi" adlı bukletdən tanış ola bilərsiniz.**

BAKI — 2022

DÖVLƏT VERGİ XİDMƏTİ

# Mənfəət vergisi ödəyicilərinin nəzərinə!

### Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən

- Vəkil qurumunun tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən, yaxud göstərilməsi nəzərdə tutulan vəkillik fəaliyyəti ilə bağlı vəkil qurumuna daxil olan ödənişlərin vəkillərə ödənilən, yaxud ödənilməsi nəzərdə tutulan hissəsi qurumun vergi tutulan gəlirlərinə aid edilmir.
- Mikro sahibkarlıq subyektləri istisna olmaqla, orta və iri sahibkarlıq subyektləri tərəfindən gəlirlərin və xərclərin uçotu 1 yanvar 2022-ci il tarixdən, kiçik sahibkarlıq subyektləri tərəfindən isə 1 yanvar 2023-cü il tarixdən yalnız hesablama metodu ilə aparılacaqdır.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

### Gəlirdən çıxılan xərclər barədə

- İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə götürən tərəfindən əvəzi ödənilməyən xərclər kapitallaşdırılaraq amortizasiya ayırmaları şəklində gəlirdən çıxılır.
- Nazirlər Kabinetitərəfindən müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr vergitutma məqsədləri üçün gəlirdən çıxılır.
- Azərbaycan Respublikasının ərazisində ezamiyyələr üzrə ezamiyyə xərcləri müvafiq təsdiqedici sənədlər əsasında (gündəlik xərclər istisna olmaqla) Nazirlər Kabinetinin müəyyənləşdirdiyi norma daxilində gəlirdən çıxılan xərclərə aid edilir.

### Azadolmalar və güzəştlər

- Dövlətin adından yaradılan publik hüquqi şəxslərin gəlirləri (2020-ci il yanvarın 1-dən 4 il müddətində dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsindən başqa digər ödənişli işlər görməsindən və xidmətlər göstərməsindən əldə olunan gəlirləri və faiz gəlirləri istisna olmaqla)
- Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin və İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun nizamnaməsinə (əsasnaməsinə) uyğun olaraq ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatları tərəfindən həmin orqanlara (qurumlara) ödənilən faiz gəlirləri;
- lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər;
- Vergi ödəyicisi tərəfindən hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi 1 yanvar 2021-ci il tarixdən 8 il müddətinə mənfəət vergisindən azad edilir.